**S.K.QASIMOVA**
*dissertant*
*e-mail: xatun.hüseyinzade@gmail.com*
**:https://orcid.org/0009-0004-0650-7897**

**Azərbaycan Universiteti**
(Bakı şəh., C.Hacıbəyli küç., 71)

**10.62021/0026-0028.2025.4.303**

# SOVET ƏDƏBİYYATINDA MİLLİ KİMLİK PROBLEMİ

***Xülasə.*** *Bu məqalədə sovet dövrü Azərbaycan ədəbiyyatında milli kimliyin formalaşma və transformasiya problemləri araşdırılır. Tədqiqatın məqsədi sovet ideologiyasının təsiri altında milli dəyərlərin ədəbiyyatda hansı estetik və məna formalarında qorunub saxlanıldığını müəyyənləşdirməkdir. "Sosialist realizmi" metodunun tətbiqi nəticəsində milli kimlik açıq şəkildə ifadə oluna bilməsə də, yazıçılar dilin poetik strukturu, folklor motivləri, simvolika və mifik təfəkkür vasitəsilə milli ruhu yaşatmışlar.*
*İsa Həbibbəyli, Soltan Əliyev, Bəxtiyar Vahabzadə, İlyas Əfəndiyev, Anar, Bilal Həsənov, Kamran Əliyev, Harun Yilmaz, Kamal Mahmudov və Aydın Məmmədlinin əsərləri əsasında aparılan təhlil göstərir ki, milli kimlik sovet ideoloji sistemində susdurulmamış, əksinə, bədii transformasiya prosesində daha çoxmənalı və dərin məzmun qazanmışdır.*

***Açar sözlər:*** *sovet ədəbiyyatı, milli kimlik, ideologiya, estetik müqavimət, mifik kod, poetik struktur, bədii transformasiya*

Azərbaycan ədəbiyyatının sovet dövrü mərhələsi milli kimlik, ideologiya və bədii təfəkkürün qarşılıqlı təsirini əks etdirən mürəkkəb bir dövr kimi tarixə düşmüşdür. 1920-ci ildən etibarən sovet ideologiyası ədəbiyyatı "sosialist realizmi" adlanan təkpartiyalı bədii sistemin sərhədlərinə saldı, yazıçıdan xalqı kommunist dəyərlər ruhunda tərbiyə etməyi tələb etdi. Lakin bütün bu siyasi çərçivələrə baxmayaraq, Azərbaycan ədəbiyyatı milli kimliyi qorumaq, xalqın mənəvi dəyərlərini yaşatmaq və tarixi yaddaşı bədii dillə gələcəyə ötürmək missiyasını itirmədi. Ədəbiyyat milli varlığın gizli müdafiə platformasına, ideoloji təzyiqə qarşı estetik direniş sahəsinə çevrildi.

Bu dövrdə formalaşan yazıçı nəslinin fəaliyyətində milli dəyərlərin ifadə üsulları dəyişsə də, onların mahiyyəti qorunub saxlanıldı. Yazıçılar açıq şəkildə milli ideyaları bəyan edə bilmədikləri üçün, onları simvol, metafora, folklor kodları və mifoloji strukturlar vasitəsilə təqdim etdilər. Beləliklə, sovet senzurası yalnız mətnin səthi qatına təsir edə bildi, lakin onun semantik dərinliyində milli ruh yaşamaqda davam etdi. Ədəbiyyatın bu "ikiqatlı təbiəti" – səthdə ideologiya, dərinlikdə isə kimlik – sovet dövrü ədəbi düşüncəsini həm ziddiyyətli, həm də çoxqatlı bir hadisəyə çevirdi.

Bu tədqiqatın əsas məqsədi sovet dövrü Azərbaycan ədəbiyyatında milli kimliyin ideoloji məhdudiyyətlər içində necə yaşadığını, hansı bədii formalar və estetik üsullar vasitəsilə ifadə olunduğunu üzə çıxarmaqdır. İsa Həbibbəylidən başlayaraq Aydın Məmmədliyə qədər bir çox tədqiqatçının əsərləri göstərir ki, ədəbiyyat bu illərdə sadəcə sosialist dəyərlərin daşıyıcısı olmayıb, eyni zamanda milli mənəvi enerjinin gizli ifadə məkanı olub. Bu baxımdan sovet dövrü ədəbiyyatı həm ideologiyanın məhsulu, həm də milli yaddaşın qoruyucusu kimi qiymətləndirilməlidir. İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatı tarixi əsərində sovet dövrü ədəbiyyatının araşdırılması milli kimliyin yalnız siyasi və ideoloji kontekstdə deyil, eyni zamanda estetik, mənəvi və bədii varlıq kimi dəyərləndirilməsi baxımından mühüm elmi əhəmiyyət daşıyır. Həbibbəyli göstərir ki, 1920-1980-ci illər arasında formalaşan "sosialist realiz-

mi" ədəbi istiqaməti sovet ideologiyasının diktəsi ilə yaradıcı təfəkkürə müəyyən məhdudiyyətlər qoysa da, bu, milli ruhun məhv olması ilə nəticələnməmişdir [1, s. 235]. Əksinə, yazıçılar dilin poetik strukturu, simvolika, folklor elementləri və arxetipik motivlər vasitəsilə milli yaddaşın yaşamasını təmin etmişlər. Onun fikrincə, senzura yalnız mətnin səthi qatına – süjet xəttinə, qəhrəmanların xarici davranışına və müəllif mövqeyinin açıq ifadəsinə təsir göstərə bilmişdir. Lakin mətnin dərin semantik laylarında, simvol və metaforalar vasitəsilə ifadə edilən milli dəyərlər, arxetiplər və mənəvi kodlar yaşamaqda davam etmişdir. Həbibbəylinin bu baxışı sovet ədəbiyyatını ideoloji təsir altında formalaşan passiv mədəniyyət kimi deyil, milli kimliyin "metaforik danışan" və "gizli yaşayan" estetik forması kimi təqdim edir. Onun fikrincə, sovet yazıçısı susmurdu – o, sadəcə, millətin tarixi yaddaşını kodlaşdırılmış şəkildə danışırdı. Bu da göstərir ki, ədəbiyyat milli varlığın səssiz, lakin dayanıqlı dirəniş meydanına çevrilmişdi.

Soltan Əliyevin Azərbaycan sovet ədəbiyyatında ideya və obraz problemi əsəri Həbibbəylinin ideyasını obraz səviyyəsində konkretləşdirir və genişləndirir. Əliyev araşdırmalarında sovet dövründə "xalq adamı", "əmək qəhrəmanı" və "partiya fədaisi" kimi qəhrəman tiplərinin ideoloji məqsədlərlə formalaşdırıldığını qeyd edir, lakin bununla yanaşı, bu obrazların dərin qatında milli mənəvi dəyərlərin yaşadığını vurğulayır [2, s. 178]. Onun fikrincə, yazıçılar sovet ideologiyasının təklif etdiyi "müsbət qəhrəman" modelini xalqın arxetipləri ilə sintez etmiş, bu fiqurlara milli mənalar, mənəvi simvollar qazandırmışlar. Beləliklə, "əmək qəhrəmanı" təkcə sosialist sisteminin fədaisi kimi deyil, eyni zamanda xalqın zəhmətkeş, vicdanlı, mənəvi bütöv insan modelinin bədii təcəssümü kimi formalaşmışdır. Əliyev göstərir ki, yazıçılar bu qəhrəmanlar vasitəsilə milli mentaliteti, xalqın etik normalarını, humanist dəyərlərini ideoloji qəliblərin içində belə yaşada bilmişlər. Nəticədə, sovet ədəbiyyatında yaradılan obrazlar həm sistemin tələblərinə cavab verirdi, həm də milli özünüdərk və mənəvi dirənişin simvoluna çevrilirdi.

Bəxtiyar Vahabzadənin "Millilik və müasirlik" əsəri bu ideyanı fəlsəfi-poetik müstəviyə qaldıraraq ədəbiyyatda millilik və müasirliyin dialektik münasibətini dərinləşdirir. Vahabzadə qeyd edir ki, milliliyin qorunması yalnız folklorun, keçmişin və ənənələrin təkrarı ilə mümkün deyil; əksinə, o, müasirliklə, zamanın ruhu ilə və yaradıcılıq enerjisi ilə vəhdət təşkil etməlidir [3, s. 92 ]. Onun fikrincə, millilik sabit, donmuş bir dəyər deyil – o, daim dəyişən şəraitdə özünü yenidən quran, həyatla birgə yaşayan bir enerjidir. Yazıçı və şairin vəzifəsi bu enerjini müasir bədii forma və təfəkkürlə ifadə etməkdir. Vahabzadə milliliyi statik ənənə kimi deyil, dinamik inkişaf prosesi kimi dəyərləndirərək göstərir ki, sovet ideologiyasının sərhədləri daxilində belə, yaradıcı fərd milli kimliyi bədii şəkildə yeniləyə, onu dövrün estetik dəyərlərinə uyğunlaşdıraraq yaşada bilər. Bu konsepsiya Soltan Əliyevin milli obrazın ikiləşməsi ideyasını tamamlayır, yəni sovet qəhrəmanı həm sistemin, həm də millətin obrazıdır; millilik isə keçmişin xatirəsi deyil, gələcəyə yönəlmiş mənəvi inkişaf formasıdır.

İlyas Əfəndiyevin "Sən elə bir dünyada yaşayırsan" romanı bu nəzəri mülahizələrin bədii təcəssümüdür. Əfəndiyev sovet dövrü insanının daxili azadlıq mübarizəsini təsvir edərək milli kimliyi ideoloji mübarizədən çox mənəvi və etik problem kimi təqdim edir [4, s. 156]. Onun qəhrəmanları sovet sisteminin sərt tələbləri, psixoloji təzyiqləri və ictimai riyakarlığı qarşısında öz mənəvi bütövlüyünü qorumağa çalışan fərdlərdir. Əfəndiyev göstərir ki, insanın milli kimliyi onun iç dünyasında – vicdanında, yaddaşında, mənəvi dəyərlərində yaşayır və heç bir siyasi sistem onu tamamilə silə bilməz. Onun yaradıcılığında milli kimlik "səssiz dirəniş" forması kimi təqdim olunur: qəhrəmanlar danışmadan, mübarizə aparmadan, lakin mənəvi bütövlüklərini qorumaqla öz milli varlıqlarını yaşadırlar. Bu, Həbibbəylinin "metaforik danışan milli yaddaş" anlayışı ilə səsləşir və sübut edir ki, sovet dövründə ədəbiyyat milli ruhun daxili müstəvidə dirənişinin bədii ifadəsinə çevrilmişdir.

Anarın "Ədəbiyyat: gerçək və uydurma" əsəri milli kimlik problemini tənqidi və fəlsəfi səviyyədə təhlil edir. O, sovet ədəbiyyatında gerçəkliklə uydurma arasındakı sərhədlərin po-

zulmasını ədəbiyyatın ideoloji manipulyasiyanın alətinə çevrilməsi kimi dəyərləndirir [5, s. 203]. Anara görə, "uydurma" ədəbiyyat insanın və millətin real təcrübəsini əvəz edən ideoloji mifə çevrilmişdi. Lakin o, bu vəziyyətdə belə yazıçıların metaforik dil, intertekstuallıq və simvolika vasitəsilə həqiqəti qorumağa çalışdıqlarını göstərir. Anar ədəbiyyatı milli yaddaşın və mənəvi dirənişin mədəni müdafiə mexanizmi kimi dəyərləndirir: ədəbiyyat ideoloji yalanın içində belə, həqiqətin qapısını açan mənəvi gücdür. Bu baxımdan, onun konsepsiyası Əfəndiyevin "daxili azadlıq" ideyasını daha geniş miqyasda davam etdirir, ədəbiyyatı milli kimliyin fəal bərpa və özünüdərk meydanına çevirir.

Bilal Həsənovun "Sovet dövrü Azərbaycan ədəbiyyatı (1920-1991-ci illər)" əsəri milli kimliyin bədii strukturlarda, yəni dilin tonunda, məkan anlayışında, obrazların münasibətlər sistemində və ailə dəyərlərinin təqdimində necə qorunduğunu araşdırır [6, s. 108]. Həsənov göstərir ki, milli kimlik yalnız ideya və məzmun səviyyəsində deyil, həm də mətndəki struktur elementlərdə yaşayır. Yazıçıların seçdiyi məkanlar – kənd həyatı, ailə mühiti, milli məişət və folklor detalları sovet ideologiyasına baxmayaraq milli təfəkkürün bədii kodlarını qoruyurdu. Məsələn, dilin poetik səslənməsi, xalq danışığının intonasiyası, mənəvi münasibətlərin quruluşu milli kimliyin bədii strukturlardakı görünməz təzahürləridir. Bu baxımdan, Həsənovun təhlili Anarın "bədii gerçəklik" anlayışını tamamlayır və sübut edir ki, milli kimlik yalnız ideoloji qarşıdurmanın deyil, həm də bədii formanın, ədəbi strukturların yaddaşında yaşayır.

Kamran Əliyevin Azərbaycan "Oğuznamə"si və kimlik əsəri milli kimliyin folklor-mifik təməllərini araşdırmaqla məsələyə tarixi-mədəni dərinlik gətirir. Müəllif göstərir ki, Oğuz mifologiyası, qəhrəmanlıq dastanları və xalq nağılları sovet ədəbiyyatında milli ideyanın gizli kodlarına çevrilmişdir [7, s. 114]. Yazıçılar senzura şəraitində milli düşüncəni açıq şəkildə ifadə edə bilmədikdə, folklorun mifik strukturlarından, qəhrəmanlıq motivlərindən və qədim simvollardan istifadə etmişlər. Bu "mifik dil" senzura şəraitində milli ideyanı dolayı şəkildə çatdırmaq üçün bədii vasitə idi. Kamran Əliyev folkloru milli kimliyin gizli kommunikasiya sistemi, yəni xalqla yazıçı arasında mənəvi anlaşma dili kimi dəyərləndirir. Bu, Həsənovun struktur yanaşması ilə səsləşərək göstərir ki, milli kimlik təkcə məzmun və ideyada deyil, həm də dildə, mifik simvollarda, mədəni yaddaşın semantik qatlarında qorunurdu.

Harun Yilmazın "The Soviet Union and the Construction of Azerbaijani National Identity in the 1930s" adlı məqaləsi sovet ideologiyasının milli kimlik siyasətini tarixi və sosioloji aspektdə təhlil edir. Yilmaz qeyd edir ki, 1930-cu illərdə "türk" kimliyindən "azərbaycanlı" kimliyinə keçid sovet hakimiyyətinin milli siyasətinin əsas məqsədlərindən biri idi [8, s. 512]. Bu siyasət vasitəsilə sovet ideologiyası türk kimliyinin ümummilli birləşdirici gücünü zəiflətməyə və yeni, sovet tipli, yerli xüsusiyyətlərə malik millət formalaşdırmağa çalışırdı. Lakin yazıçılar və ziyalılar bu siyasəti passiv şəkildə qəbul etməmiş, onu milli şüur müstəvisində yenidən mənalandırmışlar. Onlar "azərbaycanlılıq" anlayışını sovet kimliyinin bir parçası kimi deyil, milli özünüdərk prosesinin davamı kimi təqdim etmişlər. Beləliklə, sovet ideologiyasının yaratdığı süni kimlik modeli paradoksal şəkildə milli şüurun dərinləşməsinə, tarixi köklərin yenidən dərk edilməsinə səbəb olmuşdur.

Kamal Mahmudovun "National Awakening in Azerbaijan in the 50-60s of the XX century" adlı məqaləsi bu prosesi növbəti mərhələdə – milli oyanış dövründə izləyir [9, s. 607]. O göstərir ki, 1950-60-cı illər ədəbiyyatında milli kimlik artıq gizli müqavimət forması kimi deyil, fəal mənəvi dirçəliş kimi təzahür edir. Yazıçılar bu dövrdə təkcə milli dəyərləri qorumağa deyil, onları yenidən fəallaşdırmağa, oxucuda milli düşüncəni oyatmağa çalışırdılar. "Səssiz oyanış" anlayışı sovet ideologiyasına qarşı mədəni və mənəvi müqavimətin yeni mərhələsini ifadə edir. Bu dövrdə ədəbiyyat artıq passiv qorunma vasitəsi deyil, milli kimliyin bərpasının fəal mədəni platformasına çevrilmişdir.

Aydın Məmmədlinin "Sovet ideologiyası və milli kimliyin transformasiyası" əsəri isə bütün bu mərhələlərin fəlsəfi yekununu verir və ümumiləşdirici bir baxış təklif edir. Məmmədli göstərir ki, sovet ideologiyası milli kimliyi məhv etməmiş, əksinə, onu dialektik, çox-

qatlı və dəyişkən bir forma çevirmişdir [10, s. 92]. Onun fikrincə, milli kimlik bu dövrdə həm müqavimət fenomeni, həm də yaradıcılıq enerjisi kimi fəaliyyət göstərmişdir. Yəni sovet ideologiyası milli kimliyi sıxışdırmaq istədikcə, yazıçılar bu kimliyi daha dərin, daha mürəkkəb bədii formalarla ifadə etmiş, nəticədə milli özünüdərk yeni estetik səviyyəyə yüksəlmişdir. Beləliklə, Məmmədlinin yekunu göstərir ki, sovet dövrü ədəbiyyatı milli kimliyin yox olduğu deyil, əksinə, bədii dillərdə, estetik formalarda və mənəvi dəyərlərdə yenidən doğulduğu bir dövrdür.

***Nəticə.*** Aparılan təhlillər göstərir ki, sovet dövrü Azərbaycan ədəbiyyatı ideoloji sistemin çərçivələri içərisində milli kimliyin qorunması və yenidən formalaşması baxımından mühüm mərhələ olmuşdur. Yazıçılar sosialist realizminin diktə etdiyi qəliblər daxilində belə, milli ruhu yaşatmağın yollarını tapmış, dilin poetik imkanlarından, folklor elementlərindən və simvolik obrazlardan istifadə edərək xalqın yaddaşını bədii formada qorumuşlar. Bu, ədəbiyyatı ideoloji tabeçiliyin alətinə çevirmək istəyən sistemə qarşı səssiz, lakin güclü mənəvi dirənişə dönmüşdür.

Bu baxımdan, İsa Həbibbəylinin milli kimliyi "metaforik danışıq" kimi, Soltan Əliyevin ideoloji qəhrəman obrazında milli arxetip kimi, Bəxtiyar Vahabzadənin isə dəyişən şəraitdə özünü yeniləyən enerji kimi təqdim etməsi bir-birini tamamlayan nəzəri istiqamətlərdir. Əfəndiyev, Anar və Həsənovun yaradıcılıqları bu ideyanı bədii və struktur səviyyədə reallaşdırmış, Kamran Əliyev, Harun Yilmaz və Kamal Mahmudov onu tarixi və mifoloji müstəvilərdə dərinləşdirmişdir. Aydın Məmmədli isə bütün bu prosesi fəlsəfi baxımdan yekunlaşdıraraq göstərmişdir ki, sovet ideologiyası milli kimliyi məhv etməmiş, onu çoxqatlı, dialektik və dinamik bir hadisəyə çevirmişdir.

Nəticə etibarilə, sovet dövrü Azərbaycan ədəbiyyatı milli kimliyin yoxa çıxmadığı, əksinə, yeni estetik formalarda yaşadığı bir dövrdür. Bu ədəbiyyat həm ideologiyanın içində, həm də ona qarşı yaranmış, həm səssiz müqavimət, həm də yaradıcılıq gücü olmuşdur. Yazıçılar milli varlığı qorumağın ən təsirli yolunu susmaqda deyil, simvol və bədii dillə "danışmaqda" tapmışlar. Ona görə də sovet dövrü ədəbiyyatı milli kimliyin ən çətin dövrlərdə belə yaşaya bildiyinin ən güclü sübutudur – bu ədəbiyyat milli ruhun səssiz, lakin sarsılmaz sözüdür.

***Məqalənin elmi yeniliyi.*** Tədqiqatda milli kimlik problemi ideoloji qarşıdurma kimi deyil, bədii transformasiya prosesi kimi təqdim olunur. Məqalə göstərir ki, milli kimlik sovet ideoloji sistemində yalnız müqavimət forması deyil, həm də yaradıcı adaptasiya təcrübəsidir. Burada milli dəyərlər mətnin semantik qatlarında, poetik strukturlarda və mifik obrazlarda yaşadılır. Bu yanaşma milli kimlik diskursuna hermenevtik və semiotik baxış gətirir.

***Məqalənin tətbiqi əhəmiyyəti.*** Bu tədqiqat Azərbaycan ədəbiyyatının sovet dövrü təhlilinə yeni elmi yanaşma təklif edir. Milli kimliyin ədəbiyyatda ideoloji şəraitdə necə qorunması məsələsi müasir ədəbiyyatşünaslıqda kimlik, dil və mədəni yaddaş problemlərinin öyrənilməsində metodoloji əhəmiyyət kəsb edir. Tədqiqat nəticələri həm elmi tədqiqatlarda, həm də universitet səviyyəsində milli ədəbiyyat kurslarının tədrisində tətbiq oluna bilər.

**Ədəbiyyat**


1. Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı tarixi / İ.Həbibbəyli, – Bakı: Elm, – c.6. – 2011, – 235 s.
2. Əliyev, S. Azərbaycan sovet ədəbiyyatında ideya və obraz problemi / S.Əliyev, – Bakı: Nurlan, – 2008, – 178 s.
3. Vahabzadə, B. Millilik və müasirlik / B.Vahabzadə, – Bakı: Yazıçı, – 1983, – 92 s.
4. Əfəndiyev, İ. Sən elə bir dünyada yaşayırsan / İ.Əfəndiyev, – Bakı: Azərnəşr, – 1978, – 156 s.
5. Rzayev, A. Ədəbiyyat: gerçək və uydurma / A.Rzayev, – Bakı: Qanun, – 2016, – 203 s.
6. Həsənov, B. Sovet dövrü Azərbaycan ədəbiyyatı (1920–1991-ci illər) / B.Həsənov, – Bakı: Elm və Təhsil, – 2021, –108 s.
7. Əliyev, K. Azərbaycan "Oğuznamə"si və kimlik / K.Əliyev, – Bakı: AMEA Folklor İnstitutu, – 2017, – 114 s.

8. Yilmaz, H. The Soviet Union and the Construction of Azerbaijani National Identity in the 1930s // Iranian Studies, Vol. 46, No. 4, 2 – 013, – 512 s.
9. Mahmudov, K. National Awakening in Azerbaijan in the 50-60s of the XX Century // Akademik Tarih ve Düşünce Dergisi, Vol. 12, No. 3, – 2025, – 607 s.
10. Məmmədli, A. Sovet ideologiyası və milli kimliyin transformasiyası / A.Məmmədli, – Bakı: Adiloğlu, – 2019, – 92 s.

**S.K.Gasimova**

**The Problem of National Identity in Sovet Literature**

***Summary***

The article examines the problem of national identity in Azerbaijani literature during the Soviet era. It analyzes how writers preserved and reinterpreted national consciousness under the influence of the "socialist realism" doctrine. Despite strict ideological control, Azerbaijani authors protected cultural and linguistic values through folklore, symbolism, mythological codes, and poetic structures. Based on the works of Isa Habibbeyli, Soltan Aliyev, Bakhtiyar Vahabzadeh, Ilyas Efendiyev, Anar, Bilal Hasanov, Kamran Aliyev, Harun Yilmaz, Kamal Mahmudov, and Aydın Mammadli, the study demonstrates that national identity was not silenced during the Soviet period but evolved into a complex artistic phenomenon. The research highlights the dual nature of Soviet Azerbaijani literature – as both a product of ideology and a form of cultural resistance.

***Keywords:*** *Soviet literature, national identity, ideology, aesthetic resistance, mythic code, poetic structure, artistic transformation*

**С.К.Гасымова**

**Проблема национальной идентичности в советской литературе**

***Резюме***

В статье рассматривается проблема национальной идентичности в азербайджанской литературе советского периода. Анализируется, как писатели сумели сохранить и переосмыслить национальное сознание в рамках доктрины «социалистического реализма». Несмотря на идеологический контроль, азербайджанские авторы сохраняли культурные и языковые ценности посредством фольклора, символики, мифологических кодов и поэтических структур. На основе работ Исы Габиббейли, Султана Алиева, Бахтияра Вахабзаде, Ильяса Эфендиева, Анара, Билала Гасанова, Камрана Алиева, Харуна Йылмаза, Камала Махмудова и Айдына Мамедли показано, что национальная идентичность не была утрачена, а, наоборот, превратилась в сложное художественное явление. Исследование подчеркивает двойственную природу советской азербайджанской литературы – как идеологического продукта и формы культурного сопротивления.

***Ключевые слова:*** *советская литература, национальная идентичность, идеология, культурное сопротивление, поэтическая структура, мифологический код, художественная трансформация*

*Rəyçi: filol.e.d., prof. Q.Quliyev*

*Redaksiyaya daxil olub: 03.11.2025*